Müjdə ver, ikrah oyatma. Asanlaşdır, çətinləşdirmə.

Kitabın sahibi: ______________________________

Oxu tarixi: ______________________________

# XOŞBƏXT AİLƏ MODELİ

ŞAHİN HƏSƏNLİ

irşad

Redaktor: Toğrul MUSAYEV

Korrektor: Flora ƏLİYEVA

Tərtibatçı: İsmayıl SÜLEYMANLI

Cildin dizayneri: Ramin HƏSƏNƏLİZADƏ

**Şahin Həsənli**
**XOŞBƏXT AİLƏ MODELİ**

Bakı, "İrşad" Nəşriyyatı – 2026, 112 səh. / III nəşr

**© Şahin Həsənli / 2022**
**© Parlaq İmzalar MMC / 2022**
Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.

DQİDK-nin 09.02.2024 tarixli 3-32/2-181/2024 saylı məktubu ilə nəşrinə razılıq verilmişdir.

İrşad Nəşriyyatı | 26

ISBN 9952580938

İRŞAD – Parlaq İmzalar MMC-yə məxsus markadır.

www.parlaqimzalar.az
irshad@parlaqimzalar.az
facebook.com/irshadkitab
instagram.com/irshadkitab
0559697259 / 0559897259

16+

Mətbəə: "AVE PRİNT" MMC
FEVRAL / 2026

# Mündəricat


Ön söz_______________________________________7

Məcburiyyət, ya seçim?__________________________13

Ehtiraslar dünyası_____________________________22

Təbiətə və təbiiliyə "yox!"______________________28

Yaradılışın iki başlanğıcı______________________35

Niyə ailə?___________________________________43

Nikahsız alınmır______________________________54

Müasir və ənənəvi ailə_________________________63

Üçüncü yol__________________________________71

Qızıl qayda__________________________________77

Saxta sevgi_________________________________85

Gözləntilər__________________________________91

Sağlamlıq və rifah____________________________99

# Ön söz

İnsanın bir şəxsi, bir də ictimai həyatı var. Müasir ideologiyaların təsnifatı onun hansı düşüncəni – individualist, yoxsa kollektivist – seçməsinə əsasən aparılır. Zahirən mövzu məişət xarakterli olsa da, hər birimizin gündəlik həyatı ilə sıx bağlıdır.

İnsanlığın inkişafı fərdi proqresdən asılıdır, ya ictimai islahatlardan? Həyatımızı öz istədiyimiz kimi yaşamalıyıq, ya cəmiyyətin maraqlarını hər şeydən üstün hesab etməliyik? Fərdi maraqları ümumi maraqlara qurban verməliyik, yoxsa əksinə? Hər insan ömründə ən azı bir dəfə də olsun bu seçim qarşısında qalır, ona görə də bu suallara cavab tapmalıyıq.

İnsanın həm fərdi, həm də ictimai gözləntiləri, vətəndaş-dövlət münasibətləri, insanın psixoloji vəziyyəti, ictimai nizam bu suallara verilən cavablardan asılıdır. Ya cəmiyyət fərdi udmağa, onu özünün iradəsiz bir me-

xanizminə çevirməyə çalışacaq, ya da fərd axına qarşı üzərək bütün ictimai institutların dağılmasına səbəb olacaq. İnsan sanki totalitarizmlə anarxiya arasında qalıb. Əslində, insanın proqressiv ideyalardan məyus olması bu radikal seçimlə üzləşməsinin nəticəsidir. Çünki müasir fəlsəfənin qarşımıza qoyduğu radikal seçim insan təbiətinin bir hissəsindən digər hissəsinin xeyrinə imtina etməyi nəzərdə tutur. Fərdi maraqları seçən ictimai maraqları unutmalı, cəmiyyətin xeyrini düşünən isə öz mənfəətini yaddan çıxarmalıdır. Nəticədə seçimindən asılı olmayaraq, insan yarımçıqlaşır, daxilən parçalanır.

Modern paradiqmanın yaratdığı bu binar düşüncəyə postmodern dünyagörüşü özünəməxsus alternativ təqdim edir. Həyatın ictimai və fərdi sferalara bölünməsi və bu iki sfera arasında konfrontasiyadan qaçmaq üçün "şəxsi" və "ictimai" anlayışlar arasında sərhədin pozulması təklif olunur. Budur modernizmin uğursuz inkişaf proqramlarından usanan postmodernizmin təqdim etdiyi yol. Necə ki sosial şəbəkələrdə bunu artıq adi hal kimi qəbul edirik. Əvvəllər məhrəm sayılan mövzular indi ictimailəşdirilir, ictimai məsələlərdən isə ekspertlərdən başqa hamı danışır. Hətta hansı mövzu şəxsidir, hansı mövzu ictimaidir, onu belə müəyyənləşdirmək çətinləşib. Bu isə ona gətirib çıxarır ki, insan üçün həyati əhəmiyyət kəsb edən meyar və qədər anlayışları aradan gedir. Meyar və qədər hissini itirmiş insan isə çaşbaş qalır, o, yırtıcılarla dolu cəngəllikdə azmış bir kora bənzəyir: heç nə görmür, reallığı dəyərləndirə bilmir, qorxudan və

məchulluqdan doğan fantaziyasının diktəsi ilə iş görür. Nəticəsindən asılı olmayaraq, belə yaşamaq öz-özlüyündə vahiməlidir. Postmodernizm problemi həll etmək əvəzinə, problemi inkar etməyi, ona göz yummağı təklif edir. “Həqiqət nisbidir, hər kəsin öz həqiqəti var və hər həqiqət yaşanmağa layiqdir” tezisi özünə yol axtaran insanın gözünü çıxardıb kor etmək və fobiyalarının ümidinə buraxmaqdır.

Yaşadığımız dövrü səciyyələndirən digər ikitirəlik hedonizmlə fanatizmdir. Hər iki radikal təmayül bir-biri ilə bağlıdır, hətta bir-birinə qarşılıqlı təsir göstərir. Mənəviyyatla fanatizm tərəzinin eyni gözünə qoyulur, nəticədə mənəviyyat qorxunc bir sima alır və bir dəstə insan ifrat hedonizmə üz tutur. Əksinə, maddi rifah üçün çalışmaq əxlaqi fəsad və mənəviyyatsızlıqla eyniləşdirilir deyə maddiyyata xor baxılır və digər dəstə insan fanatizmə yönəlir. Radikal mənəviyyatla radikal mənəviyyatsızlıq insanlığı doğrayan qayçının iki tiyəsinə bənzəyir.

Buradakı “ifrat mənəviyyat” və “ifrat mənəviyyatsızlıq” şərti ifadələrdir. İfratçılıq bir dünyagörüşüdür, bu dünyagörüşünə yiyələnmiş insan hansı əqidədə olur-olsun, fanatikə çevriləcək. Və bu dünyagörüşü yalnız mənəvi tənəzzülə deyil, insanlığın fiziki məhvinə səbəb olacaq həm də. Hedonizmin qurbanları istənilən məsuliyyəti özünə artıq yük sayır, fanatik “mənəviyyatçılar”ın isə fərqli düşüncə sahiblərini görən gözü yoxdur. Birinci dəstə dolayı, ikinci dəstə birbaşa şəkildə qətliam törədir. Həqiqətən, üzərində ciddi düşünüləsi mövzudur.

Çünki radikalizm artıq hansısa dəstənin deyil, bütün bəşəriyyətin və hər birimizin həyatına sirayət edən bir problemdir. Həmin o qayçı hər birimizə tərəf gəlir deyə etinasız qalmaq olmaz. Hətta texnoloji inkişaf radikalizmin artmasına səbəb olur. Bəşərin düşünən beyinlərinin min bir əziyyətlə əldə etdiyi nailiyyətlər bu gün insanlığın məhvinə xidmət edir. Ya kütləvi qırğın silahları icad olunur, ya da mənəvi deqradasiyanı gözəl və cazibəli təqdim edən böyük bir industriya qurulur. Məişət əxlaqsızlığı bir yana, insanlarda cinayətə, o cümlədən qətl törətməyə rəğbət yaradılır.

Ona görə də üçüncü seçimin, üçüncü yolun axtarışına çıxmalıyıq. Bu da mənəviyyat və maddiyyatın vəhdətidir, yəni ilahi peyğəmbərlərin gətirdiyi dünyagörüşü sistemi. Müasir insanlığın qarşılaşdığı dixotomiya, onun fəsadları və kompromis üzərində qurulmuş vəhdəti-vücud konsepsiyası haqda öncəki kitabda ətraflı danışmışıq. Burada isə yalnız onu qeyd etmək istərdim ki, ilahi peyğəmbərlərin təqdim etdiyi dünyagörüş artıq həyati zərurətə çevrilib. Bəs ilahi peyğəmbərlərin təliminə əsasən, insan özü üzərində çalışıb şəxsi inkişafa diqqət yetirməli, yoxsa ictimai islahatlar üçün çalışmalıdır? Əgər müasir quruluşun bizə sırıdığı iki radikal seçimdən qaçırıqsa, onda fərdi və ya ictimai islah arasında seçimi gündəmə gətirmək də yanlışdır. Məhz burada cəmiyyətlə fərd arasında keçid olan ailənin əhəmiyyəti üzə çıxır. Nə təbliğat, nə maariflənmə, nə də ki başqa bir yol insanlığı qoruya bilər. Buna gücü yetən yalnız ailə insti-

tutudur. İlahi peyğəmbərlərin təliminə əsasən, insanlıq bir ailədir. İnsanlıq bir peyğəmbər ailəsindən başlayır, peyğəmbərlərin ailəsi vasitəsilə ilahi dəyərləri mənimsəyir, nəhayət, onların sayəsində xoşbəxt gələcəyə ümid edir.

İstənilən cəmiyyəti qiymətləndirmək istəsək, ilk öncə orada hakim olan ailə dəyərlərinə müraciət etməliyik. Ailənin mövcud vəziyyəti həm cəmiyyətin, həm də ayrı-ayrılıqda fərdlərin necə bir durumda olduğunu açıb göstərir. Ailə həm fərdin, həm cəmiyyətin güzgüsüdür. Ailənin strukturuna, üzvlərin bir-biriylə münasibətinə baxdıqda cəmiyyətin necə idarə olunduğunu, hansı dəyərlərə sahib olduğunu görmək mümkündür. Eyni zamanda bir fərdin şəxsi keyfiyyətləri onun ailəsi haqda dolğun məlumat verə bilər. Səhv anlaşılmaması üçün övladın valideynin bütün xarakter və davranışlarını mənimsəmədiyini qeyd etməliyik. Məsələ davranışın mənimsənilməsində deyil, tərbiyə metodundadır. Valideynlə övladın şəxsi keyfiyyətləri sırf ailə münasibətləri və tərbiyə metodu üzündən daban-dabana zidd ola bilər. Ola bilsin, yaşlı nəsil rüşvətxorluq və oğurluğa meyilli olmayıb, lakin gənc nəslə o qədər mənfəətpərəstliyi aşılayıb ki, illər sonra cəmiyyətdə oğurluq və korrupsiya adi hala çevrilib. Əksinə, həm fərddə, həm cəmiyyətdə yüksək mədəniyyəti və insani keyfiyyətləri tərbiyə edən məhz sağlam ailə münasibətləridir.

Təsadüfi deyil ki, fərd-cəmiyyət münasibətləri ilə bağlı müzakirələrdə ailə mövzusuna yer yoxdur. Nə mo-

dern, nə də postmodern məktəblər ailə anlayışına önəm verir, əksinə, ailə institutunu öz ideoloji təbliğatı qarşısında bir maneə hesab edir. Hərçənd məhz ailə sayəsində insan qarşısında duran radikal seçimlər yumşalır, insan öz varlığından dolğun şəkildə yararlanır. Ailə – individualizmlə kollektivizm arasında körpüdür. Ailə, sadəcə, insanlararası münasibətlərdən biri deyil, insan həyatında açar mövzudur. Bu səbəbdən qarşınızdakı kitab ailə mövzusuna həsr olunub. Uzun illər davam edən tədqiqatların nəticəsi olan bu kitabda ailənin müasir dünyadakı rolu, cinsi fərqlər və müasir cəmiyyətlərdə haqqında çox danışılmayan bir sıra məsələlərə toxunmağa cəhd etdim. Ümid edirəm ki, geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş bu kitab cəmiyyətimizdə bəşəriyyət üçün ən fundamental təsisat olan ailə haqda yeni müzakirələrə və yeni baxışların formalaşmasına səbəb olacaq.

## Məcburiyyət, ya seçim?

Sosial münasibətlər haqda elmi ədəbiyyata müraciət edəndə hərdən adamda elə təəssürat yaranır ki, insanların hiss və düşüncələri əhəmiyyətsizdir. Sanki onlar cəmiyyət adlı mexanizmin cansız ünsürləridir. Lakin reallığa baxanda görürük ki, insanlararası münasibətlərdə fərdlərin duyğuları, düşüncələri həlledici rol oynayır. İstər hansısa xeyriyyəçi olsun, istərsə də cinayətkar, yəni kimliyindən asılı olmayaraq, hər kəs addım atmamışdan öncə reallığı dəyərləndirir. O, reallığı necə hiss edirsə, necə dərk edirsə, öz davranışını da ona uyğun tənzimləyir. Bizə elə gəlir ki, konkret situasiyada belə davrandıq, hətta mümkündür düşünmədən hərəkət edirik. Amma belə deyil. Bizim davranışımızı həyata ümumi baxışımız müəyyən edir. İnsanların sosial qruplara birləşməsi və ya birləşməməsi, hətta millətlərin formalaşması və ya formalaşmaması ayrı-ayrı fərdlərin şəxsi keyfiyyətlərin-

dən asılıdır. İnsanın şəxsi marağı ilə mənsub olduğu qrupun marağı üst-üstə düşmədikdə seçim şəxsi marağın xeyrinə olur. Məsələn, İkinci Dünya müharibəsindən öncə almanların Hitler hakimiyyətinə dəstək verməsi və nasizmin dövlət ideologiyasına çevrilməsi əksər almanların şəxsi marağı ilə üst-üstə düşürdü. Tarixi kitablara müraciət edəndə oxuyuruq ki, Birinci Dünya müharibəsindən sonra Almaniya ağır şərtlərlə sülh müqaviləsi imzaladı, nəticədə iqtisadiyyatı çökdü, Hitler isə populist vədləri ilə seçkilərdə qalib gəldi. Bəli, belə idi. Diqqəti də ona yönəltməliyik ki, Hitlerə səs verən, onun ideyalarına uyan, bu yolda can qoyan hər bir alman maddi və mənəvi cəhətdən pis vəziyyətdə idi. O adamlar sırf şəxsi maraqlarının diktəsi ilə, yəni heysiyyətini bərpa etmək və maddi durumunu yaxşılaşdırmaq üçün vahid ideologiya ətrafında birləşdilər. Nasistlərin şəxsi maraqları ilə nasizm arasında uyğunluq olmasaydı, Hitler heç nəyə nail ola bilməyəcəkdi.

Biz öz həyatımızda da münasibətləri mənfəət üzərində qururuq. Sadəcə, bu münasibətləri necə qurmağımız, mənfəətlərimizi necə hesabladığımız qarşımızda duran ideoloji seçimlərə bağlıdır. Almanlar XVIII əsrin sonlarından başlayaraq öz mədəniyyətlərinin üstünlüyü haqda o qədər danışırdılar ki, nəticədə fərdi mənfəətlərinə nasizm vasitəsilə çatmaq istədilər. Başqa mühitdə mifik varlıqlara və sehrbazlığa inanırlarsa, şəxsi mənfəətə cadu yolu ilə çatmağa çalı-

şacaqlar. İnqilabi ideyaların hakim olduğu mühitdə insanlar öz mənfəətlərini bu ideyalara uyğunlaşdırmağa çalışacaqlar. Və başqaları ilə münasibəti də bu ideyaların işığı altında quracaqlar. Təbii ki, reallığı olduğu kimi dəyərləndirənlərin addımları konkret nəticə verəcək, reallıq hissini itirənlər isə başqaları ilə münasibətdən yalnız itirəcəklər.

Ərəb filoloqları hesab edirlər ki, "insan" sözü "üns" kökündən əmələ gəlib. İnsan sözü bəzi dillərdə "ailə üzvü", "başqasına bənzəyən", "yüksəyə baxan" və s. mənaları verir. Yəni "insan" sözü bir məfhum olaraq hansısa münasibətin tərəfi, subyekti mənasına gəlir. Həqiqətən də, insan yalnız başqaları ilə münasibət sayəsində həyatdan tam zövq ala bilər. Təklikdə bir fərd heç bir instinktini təmin etmək iqtidarında deyil, yəni o, fiziki baxımdan mövcud olsa belə, öz bioloji, psixoloji və sosial funksiyalarını tam yerinə yetirə bilməyəcək, nəticədə həmin müstəvilərdə ciddi pozuntu və iztirablarla üzləşəcək.

Fikir vermisinizsə, bir sıra ibtidai qəbilələrdə və qədim politeist cəmiyyətlərdə şaman və kahinlərin inisiasiya prosesi, onların vəhşi mühitə inzivaya çəkilməsi, yerin altına basdırılması, özünə fiziki xəsarət yetirməsi, hətta özünü xədim etməsi kimi rituallar psixiki vəziyyətin dəyişilməsinə hesablanıb. Elə fikirləşirdilər ki, ruhi sarsıntı nəticəsində kahin və şamanlar hallüsinasiya vasitəsilə sakral biliklər əldə edəcəklər. Onlar bu əzab-əziyyətlərə qatlaşaraq başqa-

larından fərqlənmək, üstün olmaq, sosial iyerarxiyada yüksək pillələrə qalxmaq istəyirdilər. Yəni ilk baxışdan tənhalıq və inziva kimi görsənən bu həyat tərzi mahiyyətcə sosial münasibətlərin pozulması deyil, keyfiyyətcə dəyişməsi üçün idi.

Tənhalığın yaratdığı vəhşət insanı təbii halından çıxarır. Ona görə də insanın sağlam yaşaması üçün ünsiyyətə, əlaqəyə, münasibətə ehtiyacı var. İnsan başqa insanla münasibət qurmadıqda ünsiyyət qıtlığı yaşayır, həmin boşluğu isə başqa canlılar, hətta əşyalarla doldurmağa çalışır. Yəqin, uşaqlığımızın ən sevimli komediyalarından biri "Senyor Robinzon" filmində Paolo Villaconun canlandırdığı qəhrəmanın əşyalarla insan kimi danışması yadınızdadır. Xoş xatirələrlə yadımızda qalan o kadrlar, əslində, sadə bir həqiqəti təsvir edir: tənha qalmış insan ünsiyyət üçün adam tapmadıqda mütləq özünə ünsiyyət obyekti düzəldəcək, ünsiyyətin imitasiyası ilə özünü ovunduracaq.

İnsan qarşılıqlı münasibətə möhtacdır. Məhz bu ehtiyac onun münasibətlərini icbari və ixtiyari olmaqla iki hissəyə bölür. Həyatımızda bizimlə hansısa bir münasibətdə qarşı tərəfi bəzən seçə bilirik, bəzən isə yox. Dostu seçə bilərik, amma valideyni yox. Hətta bəzən öz seçimimiz kimi qəbul etdiyimiz münasibətlər, əslində, bizim istəyimizlə qurulmur. Məsələn, həyat yoldaşını seçirik, amma bizim seçim imkanlarımız məhduddur. Həm fiziki baxımdan, həm